# Azərbaycanlı rejissor beynəlxalq film festivalının münsiflər heyətinə dəvət alıb



**Azərbaycanlı prodüser, rejissor Fariz Əhmədov Andrey Tarkovski adına XVII Beynəlxalq "Güzgü" Film Festivalının münsiflər heyətinə dəvət edilib.**

Bununla bağlı festivalın rəsmi saytında məlumat yerləşdirilib.

Münsiflər heyətinin sədri Rusiya Federasiyasının Əməkdar incəsənət xadimi Anatoli Vasilyevdir.

Müsabiqədə 12 ölkədən 8 film iştirak edəcək.

Festivalın açılışı iyunun 30-da Andrey Tarkovski haqqında sənədli filmlə reallaşacaq. Bağlanış filmi isə Kann Film Festivalında mükafat almış "Tənəzzülün anatomiyası" filmi olacaq.

Azərbaycan. - 2023.- 18 iyun.- S.10.